

## Aida Feyzullayeva

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya üzrə elmlər doktoru, professor*

### ELMI BIOQRAFIYA

Aida Hənifə qızı Feyzullayeva 1939-cu il noyabrın 15-də Bakı səhərində anadan olmuşdur. İlk təhsilini 134№-li Bakı şəhər orta məktəbində almışdır. Ali təhsilini 1957-1962-ci illər ərzində M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda almış və oranı uğurla bitirdikdən sonra təyinatla Quba şəhər 1№-li səkkizillik məktəbdə rus dili və ədəbiyyatı müəllimәsi işləmişdir.

Elm və təhsilə həvəs və maraq göstərərək gələcək tədqiqatçı aspirantura ilə əlaqədar Nizami adına Dil və Ədəbiyyat İnstitutunun məktubu əsasında Bakıya qayıdır və bir müddət Azərbaycan SSRİ Təhsil Nazirliyinin Xalq Maarif Muzeyində elmi işçi vəzifəsində çalışır. 1968-ci il martın 16-dan Nizami adına Dil və Ədəbiyyat İnstitutunun «Ədəbi Əlaqələr» şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur.

Hal-hazırda professor A.Feyzullayeva «Dünya Ədəbiyyatı və komparativistika» adı ilə davamlı fəaliyyət göstərən həmin şöbənin baş elmi işçisidir.

A.Feyzullayevanın elmi maraq dairəsi geniş və əhatəli olmasına baxmayaraq, əsasən, Azərbaycan ədəbiyyatına maraq göstərir, onun dünya ədəbiyyatı kontekstində öyrənir.

1982-ci ildə A.Feyzullayeva «Novoye obozreniye» qəzetində Azərbaycan ədəbiyyatı məsələləri mövzusunda namizədlik dissertasiyası, 1994-cü ildə isə «XIX – XX əsrin əvvəllərində Azərbaycan yazıçıları və rus ədəbi mühiti (milli ədəbiyyatın tarix iinkişafında kontakt əlaqələrin rolu)» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1988-ci ildə aparıcı elmi işçi, 2004-cü ildən isə baş elmi işçi vəzifəsində çalışır.

Nizami Gəncıvi adına Ədəbiyyat İnstitutunun «Dünya Ədəbiyyatı və komparativistika» şöbəsinin baş elmi işçisi f.e.d., professor Aida Feyzullayevanın geniş fəaliyyəti elmi ictimaiyytə yaxşı tanışdır.

A.Feyzullayevaın 7 elmi əsərləri (kitabları), onların 6-sı konseptnal monoqrafiyalardır, aktual mövzulara həsr olunmuş 200-dən artıq məqaləsi elmi yeniliyi ilə seçilir və əhəmiyyətə malikdir.

Onun «Maarif carçıları» (1988), «Oljas Süleynenov» (2004. 1-ci kitab), «Azərbaycan korifeyləri» (2005), «Azərbaycan yazıçıları Rusiyada» (2006), «Oljas Süleynenov» (2009. 2-ci kitab, yenidən işlənmiş və təkmilləşmiş nəşr), «XX əsr Azərbaycan yazıçılarının dünyagörüşündə Şərq və Qərb amilləri» (2012), «Müasir Azərbaycan ədəbiyyatında milli və başəri ideyalar» (2016) adlı elmi kitabları Azərbaycan ədəbiyyatının müxtəlif inkişaf mərhələlərini və həmçinin Azərbaycan-qazax ədəbi-ictimai əlaqələridir ki, öz elmi əksini rusdilli qazax şairi və yeni təfəkkürlü alim-türkoloq Oljas Süleymenovla bağlıdır.

Önəmli xüsusiyyətlərindən biri də odur ki, o, qoyduğu problemə hər zaman geniş rakursdan nəzər salaraq, ədəbiyyatımızın özünəməxsusluğuna, ənənələrə, yaradıcı bəhrələnmə prosesinə və novatorluğa xüsusi diqqət yetirir, öyrənir və təbliğ edir.

Azərbaycanda və bir sıra xarici ölkələrdə (Rusiya, Qazaxıstan, Türkmənistan, Rumıniya, Ukrayna, Almaniya) elmi məqalələri nəşr olunmuşdur.

Kitabları ABŞ-ın konqress kitabxanasına, Moskva, Peterburq, Alma-Ata şəhərlərinin mərkəzi kitabxanalarına göndərilmişdir.

Müntəzəm olaraq çoxsaylı məqalələri AMEA-nın «Xəbərlər», «Ədəbi əlaqələr», «Poetika-İzm», «Literaturnıy Azerbaycan» jurnalında və elmi məcmuələrdə dərc olunur.

Bununla bərabər respublika və beynəlxalq elmi forumlarda, proyektlərdə, o cümlədən şöbənin elmi-nəzəri seminarlarında fəal iştirak edir.